BDU dünyanın 700 top universitetləri siyahısına daxil olub səh. 2

Azərbaycanın Yaponiyaya göndərilən yeni səfiri ilə görüş səh. 2



Tələbələrimiz ABŞ Dövlət Departamentinin proqramını udublar səh. 2

Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
**Təsisçi:** Bakı Dövlət Universiteti

№ 10 (1418) 15 sentyabr 2011-ci il

## YENİ TƏDRİS İLİNİZ MÜBARƏK!

## POÇT QUTUSU

səh. 2

## Gəlin tanış olaq

Bakı Dövlət Universitetinə yeni daxil olan tələbələrimizi təhsil alacaqları ali təhsil ocağı barədə qısa da olsa, bilgiləndirmək məqsədilə fakültələr, kafedralar və digər qurumlar haqqında məlumatı təqdim edirik:

səh. 4

## Müseyib Ağababa oğlu Müseyibov

Azərbaycanın təhsil ictimaiyyətinə ağır itki üz vermişdir. Bakı Dövlət Universitetinin Fiziki coğrafiya kafedrasının müdiri, əməkdar elm xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, professor Müseyib Ağababa oğlu Müseyibov ömrünün 84-cü ilində vəfat etmişdir.

səh. 6

# Dövlət başçısı Prezident təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2011/2012-ci tədris ilində respublikanın ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdü verilməsi haqqında sərəncam imzalayıb. Prezidentin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli 564 nömrəli Fərmanına uyğun olaraq, 2011/2012-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəyə Prezident təqaüdünün verilməsi qərara alınıb. səh. 3



## BDU-da əsas hadisələr

səh. 5

## REKTORLARIMIZ

səh. 6

## Dünyadakı SAVADSIZLARIN sayı açıqlandı

səh. 7

## ABŞ Ədliyyə Departamentinin Xaricdə Prokurorluğun İnkişafına Yardım Proqramının Avrasiya üzrə regional direktoru ilə görüş

səh. 2

## Gündəlik protein tələbatını ödəməyin yolları

səh. 7

## ŞEYTANDAN MƏKTUB

Cənab Molla Nəsrəddin! Təvəqqə edirəm bəndənin bu iltimasını məcmuənizdə yazıb elan edəsiniz!

səh. 7

## BDU kitabxanası - yeni nəşrlər

səh. 8

## Bütün zamanların arzusu

səh. 8

## MƏNTİQİNİ YOXLA

səh. 8

# BDU dünyanın 700 top universitetləri siyahısına daxil olub

"QS World University Rankings-2011" reytinqinə görə Bakı Dövlət Universiteti (BDU) dünyanın 700 top universitetinin siyahısına daxil olub və 643-cü yerdə qərarlaşıb. Bu məqsədlə müxtəlif ölkələrin 2919 universiteti haqqında məlumat təhlil edilib və nəticədə 712 ali məktəb reytinqə daxil olub. Dünyanın ən yaxşı təhsil müəssisələrinin siyahısına bu il daha 80 yeni universitet əlavə edilib. Onlardan 18-i Mərkəzi Avropa və keçmiş Sovet İttifaqı məkanında yerləşən universitetlərdir. Qiymətləndirmə zamanı beş əsas göstərici nəzərə alınıb: tələbə və professorların nisbəti, tələbə və professor-müəllimlərin beynəlmiləlləşdirilmə səviyyəsi, sitat gətirmə indeksi, işəgötürənlər arasında nüfuzu və akademik nüfuzu.

Bu yaxınlarda Parisdə keçirilən YUNESKO-nun son konfransında hazırda dünyada 20.000 ali məktəbin mövcud olduğu qeyd olunub. 700 top universitetlər siyahısına düşmək dünyada 4% təşkil edən elitar universitetlərin siyahısına daxil olmaq deməkdir.

Qeyd etmək lazımdır ki, "QS World University Rankings" (təsisçisi Böyük Britaniyadan Quacquarelli Symondsdur) və ARWU-500 (Academic Ranking of World Universities, Şanxay Universitetinin Ali Təhsil İnstitutu tərəfindən tərtib olunur) universitetlərin reytinqlərini müəyyənləşdirən dünyanın ən nüfuzlu beynəlxalq qurumlarıdır.



## ABŞ Ədliyyə Departamentinin Xaricdə Prokurorluğun İnkişafına Yardım Proqramının Avrasiya üzrə regional direktoru ilə görüş

Avqustun 10-da akademik Abel Məhərrəmov ABŞ Ədliyyə Departamentinin Xaricdə Prokurorluğun İnkişafına Yardım Proqramının Avrasiya üzrə regional direktoru, eyni zamanda McGill Universitetinin dosenti xanım Katerina Nyukamı qəbul edib. Məlum olub ki, qonaq Azərbaycanın hüquqşünas kadrlarını hazırlayan, zəngin ənənələrə malik təhsil ocağı olan Bakı Dövlət Universitetinin hüquq fakültəsi ilə tanış olmaq niyyətindədir.

Universitet haqqında xanım Katerina Nyukama məlumat verən rektor Abel Məhərrəmov onun beynəlxalq əlaqələrindən, ABŞ universitetləri ilə əməkdaşlıqdan, hüquq sahəsində münasibətlərin qurulmasından bəhs edib. Hüquq fakültəsində bir çox fənlərin tədrisində elmi məktəbin formalaşdığını deyən rektor ekologiya, insan, kommersiya, beynəlxalq ekologiya, dəniz hüquqları sahəsində də elmi məktəblərin formalaşması zərurətindən danışıb. Bildirib ki, bu sahələrin daha da inkişafı üçün tələbələrin Avropa, Amerika universitetlərində təhsillərini davam etdirmələri, müəyyən müddətdə tədqiqat aparmaları və təcrübə keçmələri məqsədəuyğun olardı. Xanım Katerina Nyukam hüquq sahəsində əlaqələrin qurulması, daha da dərinləşməsi, irəli sürülən təkliflərin reallaşması üçün çalışacağını bildirib.

Qarşılıqlı maraq doğuran digər məsələlərin də müzakirə edildiyi görüşdə ABŞ Ədliyyə Departamentinin Bakıdakı Rezident Hüquq Müşaviri Erik Peterson da iştirak edib.

Qonaqlar universitetlə tanış olub və yüksək təəssüratla ayrılıblar.

## POÇT QUTUSU

### Bakı Dövlət Universitetinin rektoru, millət vəkili, akademik Abel Məhərrəmova

Hörmətli rektor!

Övladım Rzazadə Vüsalın Bakı Dövlət Universitetinin ekologiya və torpaqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirməsi ilə bağlı təbrik məktubunuzu aldıq. Bu sevinci ailə üzvlərimiz saatlarla yox, günlərlə yaşadı.

Hörmətli Abel müəllim!

Respublika ali təhsil ocaqlarının bayraqdarı, regionda ən nüfuzlu təhsil ocağı olan BDU-nu fərqlənmə diplomu ilə bitirən övladım Rzazadə Vüsalla qürur duyuram. Onun cəmiyyətdə sağlam vətənpərvər, aldığı təhsildə nümunəvi olmağı Azərbaycan təhsilində olan hərtərəfli inkişafın nəticəsidir.

Hörmətli Abel müəllim!

BDU-da olan sağlam atmosfer, yüksək təhsil tələbələrə göstərilən qayğının nəticəsidir ki, məzunlar istehsalatda uğurla fəaliyyət göstərirlər. Bütün bunlar Sizin əməyinizin bəhrəsidir. Böyük bir elm ocağına yorulmadan rəhbərlik etməyiniz, əldə olunan nailiyyətləriniz bir valideyn kimi məni sevindirir.

Hörmətli Abel müəllim!

Mən və bizim ailə üzvlərimiz Sizə bir akademik, millət vəkili, rektor kimi ağır məsuliyyətli, çətin vəzifələrin öhdəsindən layiqincə gəlmək işində Allahdan cansağlığı, uzun ömür, ailə xoşbəxtliyi, səadət və uğurlar diləyirik.

***Böyük hörmətlə,***

***valideyn Mürsəl müəllim,***
***Biləsuvar rayonu***

# Bilik günü münasibətilə rektor, akademik Abel Məhərrəmovun müraciəti

Ümummilli lider Heydər Əliyevin "Azərbaycan xalqının milli sərvəti" adlandırdığı və mövcud olduğu 91 il ərzində xalqımızın maariflənməsində, milli təfəkkürünün, milli özünüdərkinin, ziyalı təbəqəsinin formalaşmasında müstəsna rol oynayan Bakı Dövlət Universitetinə daxil olmağınız münasibətilə hər birinizi ürəkdən təbrik edirəm. Daxil olduğunuz universitet təkcə Azərbaycanın deyil, bütün müsəlman şərqinin ilk dünyəvi ali məktəbidir. Azərbaycan xalqının intellektual səviyyəsinin, elmi potensialının formalaşmasında və inkişafında, yüksək ixtisaslı milli kadrların hazırlanmasında əvəzsiz xidmətlər göstərmişdir.

Hər zaman reytinqi və nüfuzu yüksək olan Bakı Dövlət Universiteti bu gün də respublika ali məktəblərinin flaqmanı rolunu uğurla davam etdirməkdə, ölkəmizin milli universiteti statusunu qorumaqda davam edir. Qeyd etmək istəyirəm ki, respublikamızda 52 universitet vardır. Bunlardan 38-i dövlət, 14-ü özəl ali məktəbdir. Ancaq bu il respublika ali məktəblərinə qəbul olan tələbələrin hər 8 nəfərindən biri, yəni 12%-i Bakı Dövlət Universitetinə daxil olmuşdur. Belə xoşbəxt gənclərin sayı 3556 nəfərdir. Əgər nəzərə alsaq ki, bu tələbələrdən 318 nəfəri 600-dən yuxarı bal toplamışdır və 12 nəfəri Prezident təqaüdçüsüdür, bu, yalnız kəmiyyət göstəricisi deyil, həm də keyfiyyət göstəricisinin nümunəsidir. Bir məsələni də qeyd etmək istəyirəm ki, dünyada mövcud olan yüz minədək universitetdən yalnız 19 min 200-ü rəsmi olaraq YUNESKO tərəfindən qəbul edilmiş, onlardan 12 min universitet ali təhsil müəssisələrinin reytinqini müəyyənləşdirən dünyanın ən nüfuzlu beynəlxalq qurumlarının siyahısına düşmüşdür. Bu günlərdə həmin 12 min universitet arasından dünyanın ən nüfuzlu 700 universitetin adı açıqlanmış və sevindirici haldır ki, həmin siyahıda Bakı Dövlət Universiteti də yer tutmuşdur. Əgər nəzərə alsaq ki, təkcə respublikamızdan deyil, bütün regiondan yalnız bir neçə universitet bu nüfuzlu siyahıya düşə bilmişdir, onda sizin məsuliyyətiniz bir qədər də artmış olur. Çünki təkcə universitetimizin deyil, həm də xalqımızın, ölkəmizin gələcəyi sizin əlinizdədir.

Hər bir xalqın, dövlətin qüdrəti onun yeraltı və yerüstü sərvəti ilə ölçülmür. Qüdrətli, inkişaf etmiş dövlətlərə onun iqtisadi potensialı ilə yanaşı, intellekt kapitalına görə qiymət verilir. Respublikamızda həyata keçirilən iqtisadi, sosial islahatlarla birlikdə, elmin və təhsilin inkişafı ilə bağlı qəbul olunan fərman və sərəncamlar bir daha sübut edir ki, yeritdiyi daxili və xarici siyasətlə, beynəlxalq aləmdə özünə böyük hörmət və nüfuz qazanan prezidentimiz cənab İlham Əliyevin "Biz iqtisadi potensialımızı intellekt kapitalına çevirməliyik" devizi ilə təhsilin Avropa standartlarına uyğunlaşdırılması, onun maddi-texniki bazasının inkişafı ilə bağlı qarşıya qoyduğu məqsədlər artıq reallığa çevrilməkdə, gerçək həllini tapmaqdadır. Respublikamızın bütün guşələrində yeni məktəblərin, təhsil ocaqlarının tikilib istifadəyə verilməsi, informasiya-kommunikasiya texnologiyalarının son nailiyyətləri ilə təchiz olunması bir daha sübut edir ki, vətənimizdə kamil şəxsiyyətin, hərtərəfli biliklərə malik vətəndaşların formalaşması üçün kifayət qədər yüksək imkanlar yaradılır. Yüzlərdə gəncin Avropanın qabaqcıl təhsil ocaqlarına göndərilməsi, təhsil islahatlarının uğurla həyata keçirilməsi, "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanması kimi çox dəyərli sərəncamların Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanması özünəməxsus təhsil və tədris ənənələri olan ölkəmizin işıqlı gələcəyindən xəbər verir.

**Yeni tədris ili münasibətilə sizi bir daha təbrik edir, yeni uğurlar, müvəffəqiyyətlər arzulayıram.**

# Azərbaycanın Yaponiyaya göndərilən yeni səfiri BDU-da olub

**Avqustun 24-də Bakı Dövlət Universitetinin rektoru, millət vəkili, parlamentin Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri akademik Abel Məhərrəmov Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyin edilən Gürsel İsmayılzadəni qəbul edib. Universitet haqqında səfirə məlumat verən rektor əsasən Yaponiya universitetləri ilə əməkdaşlıqdan bəhs edib. Abel Məhərrəmov bu ölkənin ali təhsil ocaqları, xüsusən də Qumma Universiteti ilə BDU-nun əməkdaşlığının olduğunu söyləyib. Rektor 2000-ci ildən şərqşünaslıq fakültəsində yapon dili və ədəbiyyatı ixtisasının fəaliyyət göstərməsindən, bu sahədə bakalavr və magistr hazırlanmasından, yapon dili üzrə elmi məktəbin formalaşmasından bəhs edib.**



Səfirlə görüşün münasibətlərə yeni impuls olacağını vurğulayan rektor Abel Məhərrəmov universitetlərarası əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Rektor Abel Məhərrəmovun fikirləri ilə həmrəy olan səfir Gürsel İsmayılzadə Prezident İlham Əliyevlə görüşündən danışıb və dövlət başçısının Yaponiya ilə bir çox sahələrdə münasibətlərin inkişafına, dostluq əlaqələrinin möhkəmləndirilməsinə verdiyi əhəmiyyətdən, o cümlədən Prezidentin Azərbaycandan Yaponiyaya tələbə göndərilməsində maraqlı olduğundan bəhs edib. Bu baxımdan Gürsel İsmayılzadə gələcək fəaliyyətində bu məsələyə xüsusi diqqətin olacağını qeyd edib.

Prezident İlham Əliyevin Yaponiyaya tələbə göndərilməsi ilə bağlı fikrinin əhəmiyyətinə toxunan rektor Abel Məhərrəmov dövlət hesabına təhsil alacaq gənclərin qayıtdıqdan sonra bir neçə il Bakı Dövlət Universitetində çalışıb mütəxəssis yetişdirmələrinin önəmini də qeyd edib.

Səfir rektor Abel Məhərrəmovun parlamentin Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi fəaliyyətini yüksək dəyərləndirdiyini, yeni təyinatı dövründə universitetə gəlməyinin görülən işləri daha da fəallaşdırmaq, bu işlərə müəyyən təkan vermək məqsədi daşıdığını, universitetlərarası əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu söyləyib.

Qarşılıqlı maraq kəsb edən digər məsələlərin də müzakirə edildiyi görüşdə beynəlxalq əlaqələr üzrə prorektor Şəlalə Məmmədova da iştirak edib.

# Tələbələrimiz ABŞ Dövlət Departamentinin proqramını udublar

Avqustun 10-da rektor, akademik Abel Məhərrəmov ABŞ səfirliyinin mətbuat müşaviri Kis Bin və səfirliyin Təhsil və Mədəniyyət işləri üzrə müşaviri Kris Consu qəbul edib. Görüşdə ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət işləri üzrə Bürosunun UQRAD və digər təhsil mübadilə proqramları ətrafında fikir mübadiləsi apırılıb. Məlum olub ki, II və III kurs tələbələri üçün nəzərdə tutulan UQRAD proqramının müddəti 1 ildir. Maliyyə xərcləri Dövlət Departamenti tərəfindən ödənilən proqramda fizika, kimya, biologiya, iqtisadiyyat, biznes, hüquq, kompyuter elmləri fakültələrinin tələbələri iştirak edə bilərlər. BDU tələbələrinin hər il UQRAD proqramına qatıldıqlarını və yüksək göstəricilər əldə etdiklərini deyən qonaqlar nəticədən məmnun olduqlarını bildiriblər. Rektor Abel Məhərrəmov da öz növbəsində proqramla bağlı fikirlərini bölüşüb, universitetin tətbiqi riyaziyyat və kibernetika fakültəsinin 2 nəfər tələbəsinin yüksək müsabiqə şərtlərinə baxmayaraq, proqramın qalibləri olmalarından danışıb, universitetin bütün fakültələrində ingilisdilli qrupların yaradılmasının planlaşdırıldığından bəhs edib.

Səhifəni təqdim etdi: **Mətbuat və İnformasiya şöbəsi**

**Hər il olduğu kimi, bu il də ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayaraq Prezident təqaüdçüsü adını qazanmış 12 gənc Bakı Dövlət Universitetini seçib. "Bakı Universiteti" qəzeti həmin tələbələri yaxından tanıtmaq məqsədilə onlar haqqında yazını təqdim edir:**

# Dövlət başçısı Prezident təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2011/2012-ci tədris ilində respublikanın ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdü verilməsi haqqında sərəncam imzalayıb. Prezidentin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli 564 nömrəli Fərmanına uyğun olaraq, 2011/2012-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş 102 tələbəyə Prezident təqaüdünün verilməsi qərara alınıb.



## Elgiz Muradbəyli

Muradbəyli Elgiz 1993-cü ildə Tovuz rayonunun Dönük Qırıqlı kəndində anadan olub. 2000-ci ildə Gəncə şəhərindəki 20 saylı orta məktəbin 1-ci sinfinə daxil olub. 2006-cı ildə isə Gəncə Özəl Türk Liseyinə qəbul olub. 9-cu sinfə qədər burada oxuyan Elgiz daha sonra təhsilini Bakı şəhəri Binəqədi rayonundakı 276 saylı orta məktəbdə davam etdirib. Orta məktəbi "əla" qiymətlərlə bitirən Elgiz eyni zamanda məktəbin bir sıra ictimai işlərində də fəallıq göstərib. Dəfələrlə inşa yazı müsabiqələrinin qalibi olub.

O, 2011-ci ildə ali məktəblərə qəbul imtahanlarında III ixtisas qrupu üzrə yüksək bilik nümayiş etdirərək **695 bal** toplayıb. Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olan Elgiz universiteti də "əla" qiymətlərlə bitirmək və bacarıqlı bir hüquqşünas kimi yetişmək arzusundadır.

Elgiz öz sevincini bizimlə də bölüşdü:

- Hüquq təhsili almaq mənim çoxdankı arzum idi. Sevdiyim bir ixtisasa yiyələnəcəyim üçün, ilk növbədə, valideynlərimə borcluyam. Qəbul imtahanlarına hazırlaşarkən valideynlərim mənə çox böyük mənəvi dəstək olublar. Digər tərəfdən, bu uğuru qazanmağımda böyük pay sahibi olan müəllimlərimə öz minnətdarlığımı bildirirəm. Başda riyaziyyat müəllimim Ramiz Əhmədov olmaqla, bütün müəllimlərimə, hətta ibtidai sinif müəlliməmə də öz dərin təşəkkürümü bildirirəm. Ən böyük arzum öz peşəsini dərindən bilən bir diplomat olmaqdır. Ölkəmizi xarici diplomatik əlaqələrdə layiqincə təmsil **etmək istərdim.**



## Gövhər Əlizadə

Gövhər Əlizadə Prezident təqaüdçüsü adına **675 balla** layiq görülüb. 1993-cü ildə Bakıda anadan olan Gövhər, məktəb həyatına 72 №-li liseydən başlayıb, 9-cu sinifdən isə 287 №-li "Zəkalar" liseyində təhsilini "əla" qiymətlərlə davam etdirib. Məktəbdə çox aktiv şagird olub. Bütün fənlər üzrə olimpiadalarda və "Natiqlər", "Azərbaycan - dünyam mənim", İTV-də yayımlanan "Xəmsə" bilik teleoyunu kimi müxtəlif müsabiqələrdə iştirak edib, həmişə də ilk yerləri tutub. İctimai tədbirlərdə də fəal olub və nitq qabiliyyəti yaxşı olduğu üçün aparıcı kimi çıxış edib.

Qəbul imtahanına necə hazırlaşması ilə maraqlandıq. Cavab belə oldu: "Çoxları: "Oxumaq üçün mütləq rejim lazımdır," - deyə düşünürlər. Mən bu fikirlə razılaşmıram. Əsas nəyi, necə və nə vaxt oxumağın lazım olduğunu şüurlu dərk etməkdir". Gülər bu nailiyyətinə görə öncə Allaha, daha sonra valideynlərinə, müəllimlərinə, iradə və zəhmətinə borclu olduğunu bildirdi: "Müəllimlərimdən, ilk növbədə, ibtidai sinif müəllimim Həqiqət Şirəliyevaya, riyaziyyat müəllimlərim Rafil İmanova, Məmmədəli Səfərova və məktəbimizin direktoru Aygün Əhmədliyə biz şagirdlərə böyük qayğısına və yaratdıqları şəraitə görə minnətdaram".

Hələ uşaqkən yazı və nitq bacarığına görə jurnalist olmaq istəyən Gülər daha sonra fikrini dəyişib və hüquqşünas olmağa qərar verib. "Çünki insanların haqlarını qorumaq, əzilənləri müdafiə etmək istəyirəm. Bu ixtisasa həvəs həm də 6-ci sinifdə oxuyarkən USAİD və ABA/CEELI - dəstəyi ilə həyata keçirilmiş "Street law" proqramı çərçivəsində təşkil olunmuş "Canlı hüquq" dərsləri ilə başladı. O zaman yadımdadır, mənə cinayətkarın vəkili rolu tapşırılmışdı. Və mən də onu elə müdafiə etdim ki, cəzası müəyyən müddətə islah işləri ilə yekunlaşdı" - deyə gələcəyin hüquqşünası o illərin xatirəsini bizə həvəslə danışdı.

Ən böyük arzusu öz sahəsində peşakar mütəxəssis olmaqdır. Çünki bütün uğurlar peşakarlıqdan başlayır.



## Aqil Hüseynli

Hüseynli Aqil Bakı şəhərində anadan olub. Birinci sinfə 82 №-li orta məktəbdə getsə də, 6-cı sinifdən təhsilini humanitar fənlər liseyində davam etdirib. Aşağı siniflərdə oxuyarkən ən sevdiyi fənn riyaziyyat olub. Hətta bu fənn üzrə olimpiadalarda da dəfələrlə uğurlu nəticələr əldə edib. Valideynləri iqtisadçı olduğu üçün Aqil də onların yolunu davam etdirməyi düşünürmüş. Lakin orta məktəbin sonuncu sinfində fikrindən daşınıb və hüquqşünas olmaq qərarına gəlib. III qrup istiqamətində inadla çalışmağa başlayıb və nəticədə **685 bal** toplayaraq hüquq fakültəsinin tələbəsi adına layiq görülüb.

Məktəb vaxtı Aqilin hansı yarışlara qatılması ilə maraqlandıqda isə məlum oldu ki, o, ATV kanalında məşhur olan "LG bilik akademiyası" proqramında iştirak edib və qalib olub.

O, təhsildə, elmdə daha böyük uğurlar qazanmağı, universiteti qırmızı diplomla bitirməyi qarşısına məqsəd qoyub.



## Əziz Məmmədli

1993-cü ildə Bakı şəhərində anadan olub. 2000-ci ildə Bakının Nəsimi rayonundakı 266 №-li məktəbin 1-ci sinfinə daxil olub. 2011-ci ildə Bakı Özəl Türk Liseyini əla qiymətlərlə bitirib. Təhsil aldığı illər ərzində məktəbin ictimai işlərində fəal iştirak edib, futbol və voleybol komandalarının heyətində çıxış edib, eyni zamanda ayrı-ayrı rayon və şəhər olimpiadalarının iştirakçısı olub və bir sıra xeyriyyəçilik tədbirlərində fəallıq göstərib. ABŞ-da layihə yarışmasında iştirak edib və bürünc medala layiq görülüb.

O, 2011-ci ildə ali məktəblərə qəbul imtahanlarında III ixtisas qrupu üzrə yüksək bilik nümayiş etdirərək **675 bal** toplayıb. Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olan Əziz burada hüquqşünas olaraq yetişəcək.

Redaksiyamızın qonağı olan Əziz Məmmədli öz sevincini bizimlə də bölüşdü:

- Mən yüksək bal topladığıma görə, birinci növbədə, öz valideynlərimə və müəllimlərimə borcluyam. Atam bankda işləyir, anam evdar qadındır. Riyaziyyat müəllimim Lalə Mustafayeva, ingilis dili müəllimin Rüfət Qurbanov, Azərbaycan dili və ədəbiyyat müəllimim Məhərrəm Nağıyevin yüksək bal toplamağımda çox böyük rolları olub. Onların mənim üzərimdə əməyi danılmazdır. Valideynlərimə və müəllimlərimə dərin təşəkkürümü bildirirəm. Ən böyük arzum daxil olduğum ali məktəbi "əla" qiymətlərlə bitirmək, bacarıqlı bir hüquqşünas olaraq dövlət strukturlarında əhəmiyyətli yerlərdən birini tutmaq, xalqıma, millətimə ləyaqətlə xidmət etməkdir. Daha sonra isə xaricdə təhsil alan tələbə dostlarıma imkanım çatan qədər yardım etmək istəyirəm.



## Fəridə Cəbrayılova

**666 balla** hər bir abituriyentin arzusunda olduğu təqaüdə sahib olan Fəridə Cəbrayılova 1994-cü ildə Bakı şəhərində anadan olub. 200 №-li orta məktəbi əla qiymətlərlə bitirib. Məktəbdə həmişə Azərbaycan dili və tarix fənləri üzrə olimpiadalara qatılan Fəridə burada da ilk yerləri tutub. Anası ingilis dili müəllimi olduğundan bu dili mükəmməl mənimsədiyini söyləyir. Uşaqlıqdan axtarış etmək, insanların hüquqlarını qorumaq arzusunda olan Fəridə hələ aşağı siniflərdə oxuyarkən hüquqşünas olmağı qarşısına məqsəd qoyub. Bu arzuya qovuşduracaq yolda artıq ilk addımlarını ataraq hüquq fakültəsinə daxil olan Fəridədən buna görə kimə borclu olduğunu soruşduqda: "Təbii ki, ilk növbədə, öz çalışqanlığıma, məsuliyyətimə - bir sözlə, özümə borcluyam. Daha sonra, söz yox ki, valideynlərimin, müəllimlərimin də mənə dəstəyi böyük olub," - söylədi. Sinif rəhbəri Rəsmiyyə müəlliməyə, tarix müəllimi Səbinə İsmayılovaya, Azərbaycan dili müəllimi Gülnarə müəlliməyə təşəkkürünü bildirən Fəridənin gələcək arzuları bitməz-tükənməzdir. Xarici ölkələrdə səfirlərin vəkili olmaq, Ali Məhkəmədə çalışmaq onun arzuları sırasındadır.

Qeyd edək ki, gələcəyin hüquqşünası olacaq bu tələbə qız həm də idmanla məşğul olur.

Hazırladı:
**Aynur QURBANQIZI**
**Kəramət BÖYÜKÇÖL**

# Gəlin tanış olaq

**Bakı Dövlət Universitetinə yeni daxil olan tələbələrimizi təhsil alacaqları ali təhsil ocağı barədə qısa da olsa, bilgiləndirmək məqsədilə fakültələr, kafedralar və digər qurumlar haqqında məlumatı təqdim edirik:**

**Azərbaycan Demokratik Respublikası Parlamentinin 1 sentyabr 1919-cu il tarixli iclasında Bakıda universitetin təsis edilməsi qərarı qəbul edilib və onun nizamnaməsi təsdiq olunub. Beləliklə, Avropa və Asiyanın qovşağında ilk dünyəvi ali təhsil ocağı yaradılıb. Universitet ilk tədris ilinə 2 fakültə: tarix-filologiya və tibb fakültələri, 44 müəllim və 1094 tələbə ilə başlayıb. Universitetin ilk rektoru görkəmli rus alimi, Kazan Universitetinin professoru, məşhur cərrah V.İ.Razumovski olub.**

**Hal-hazırda Bakı Dövlət Universiteti 4 korpusdan ibarətdir. Bakı Dövlət Universitetində 60-dək ixtisas üzrə 17 fakültədə 20 minədək tələbə təhsil alır. Dərslər 3 bölmədə (Azərbaycan, rus, ingilis) aparılır. 14 dil tədris edilir. 1300-dək müəllimdən 14 nəfəri Milli Məclisin deputatı, 22 nəfəri AMEA-nın həqiqi və müxbir üzvü, təxminən 300 nəfəri elmlər doktorudur.**

## Rektorumuz

**Akademik Abel Məmmədəli oğlu Məhərrəmov**

Abel Məhərrəmov 1950-ci ildə anadan olub. 1966-cı ildə orta məktəbi medalla, 1971-ci ildə Bakı Dövlət Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1976-cı ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində namizədlik, 1991-ci ildə doktorluq dissertasiyasını müdafiə edib. BDU-da böyük elmi işçi, tədris hissəsinin müdiri, kimya fakültəsinin dekanı vəzifələrində çalışıb. 1999-cu ildə Bakı Dövlət Universitetinin rektoru vəzifəsinə təyin olunub. 2000-ci ildən əməkdar elm xadimidir. 2001-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2007-ci ildən həqiqi üzvüdür.

2000-ci ildə elm və texnologiya sahəsində səmərəli fəaliyyətinə görə İqtisadi Əməkdaşlıq Təşkilatının "Qızıl medal"ına layiq görülüb. 2002-2004-cü illərdə Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasının prezidenti olub, 2004-cü ildən isə vitse-prezidentdir.

Elm və təhsil sahəsində göstərdiyi təşəbbüskarlığa, milli təhsilin inkişafı və beynəlxalq təhsil məkanında inteqrasiya proseslərinə verdiyi töhfələrə görə bir çox orden, medal və mükafatlara, o cümlədən "Şöhrət" ordeninə layiq görülüb.

2005 və 2010-cu illərdə millət vəkili seçilib və Azərbaycan-Yaponiya Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Abel Məhərrəmov bir sıra xarici universitetlərin fəxri doktorudur.

2010-cu ildən Azərbaycan Respublikasının Elm, Mədəniyyət və Ədəbiyyat sahəsində Dövlət Mükafatları Komissiyasının üzvüdür.

Azərbaycanda və xaricdə nəşr olunmuş 1000-dən çox elmi əsərin müəllifidir. Buraya 48 patent, 14 monoqrafiya, 41 dərslik və dərs vəsaiti daxildir. Rəhbərliyi altında 34 kimya elmləri doktoru və namizədi hazırlanmışdır.

Ailəlidir, iki övladı və beş nəvəsi var.

## Prorektorlarımız

*Bakı Dövlət Universitetində 6 prorektor fəaliyyət göstərir. Bu sayımızda həmin prorektorlar barədə qısa da olsa, məlumat təqdim edirik:*

Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor
**Əliyeva İradə Nurəddin qızı**
Biologiya elmləri doktoru, professor
İş telefonu: (+994 012) 539 15 87
e-mail: vice-rector@bsu.az
Əsas bina, II mərtəbə

Elm və innovasiyalar üzrə prorektor
**Kazımzadə Aydın Həsən oğlu**
Fizika-riyaziyyat elmləri doktoru, professor
İş telefonu: (+994 12) 538 15 54
e-mail: bsu_aydin@yahoo.com
Əsas bina, II mərtəbə

Beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektor
**Məmmədova Şəlalə Rafik qızı**
Tarix elmləri namizədi, dosent
Telefon:(+994 12) 563 26 01



e-mail: shalale01@yahoo.com
Əsas bina, II mərtəbə

Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektor
**Hacıyev Sani Tofiq oğlu**
Tarix elmləri doktoru, professor
Telefon: (+994 12) 439 10 68
e-mail: s.t.hacıyev@mail.ru
Əsas bina, II mərtəbə

İqtisadi və təsərrüfat işləri üzrə prorektor
**Ramazanlı Nəbi Əhməd oğlu**
Texnika elmləri namizədi
Telefon: (+994 12) 510 08 23
e-mail: nramazanlı@yandex.ru
Əsas bina, I mərtəbə

Ümumi işlər üzrə prorektor
**Abdullayev Rövşən Müslüm oğlu**
Telefon: (+994 12) 438 92 75
2 saylı bina, II mərtəbə

## Fakültələrimiz

**Mexanika-riyaziyyat fakültəsi**
1920-ci ildə fizika-riyaziyyat fakültəsi kimi yaradılıb, 1958-ci ildə müstəqil fakültə kimi fəaliyyətə başlayıb. 3 saylı tədris binasında, V-VII mərtəbələrdə (dekanlıq - V mərtəbə (otaq 509) yerləşir. 9 kafedrası, 1211 tələbəsi var. Dekan professor Nizaməddin İsgəndərovdur.

**Tətbiqi riyaziyyat və kibernetika fakültəsi**
1972-ci ildə təsis olunub. 3 saylı tədris binasında, II-IV mərtəbələrdə (dekanlıq - II mərtəbə (otaq 211) yerləşir. 11 kafedrası, 1565 tələbəsi var. Dekan professor Məhəmməd Mehdiyevdir.

**Fizika fakültəsi**
1958-ci ildə müstəqil fakültə kimi təsis edilib. Əsas binada, I,III-IV mərtəbələrdə (dekanlıq - III mərtəbə (otaq 319) yerləşir. 9 kafedrası, 1020 tələbəsi var. Dekan professor Rasim Məmmədovdur.

**Kimya fakültəsi**
1934-cü ildə təsis edilib. Əsas binada, I-IV mərtəbələrdə (dekanlıq - III mərtəbə (otaq 370) yerləşir. 7 kafedrası, 860 tələbəsi var. Dekan professor Abdulsəyid Əzizovdur.

**Biologiya fakültəsi**
1934-cü ildə təsis edilib. Əsas binada, I-IV mərtəbələrdə (dekanlıq - II mərtəbə (otaq 283) yerləşir. 9 kafedrası, 1025 tələbəsi var. Dekan professor Akif Quliyevdir.

**Coğrafiya fakültəsi**
1944-cü ildə geologiya-coğrafiya fakültəsi kimi yaranıb. 1990-cı ildə müstəqil fakültə kimi fəaliyyətə başlayıb. Əsas binada, IV mərtəbədə (dekanlıq - IV mərtəbə (otaq 405) yerləşir. 6 kafedrası, 1200 tələbəsi var. Dekan professor Fərda İmanovdur.

**Geologiya fakültəsi**
1944-cü ildə geologiya-coğrafiya fakültəsi kimi yaransa da, 1990-cı ildə müstəqil fakültə kimi fəaliyyətə başlayıb. Əsas binada, II- III mərtəbələrdə (dekanlıq - III mərtəbə (otaq 301) yerləşir. 6 kafedrası, 740 tələbəsi var. Dekan dosent Adil Xasayevdir.

**Filologiya fakültəsi**
1919-cu ildə təsis olunub. 1 saylı tədris binasında, I-IV mərtəbələrdə (dekanlıq - II mərtəbə (otaq 106) yerləşir. 16 kafedrası, 1253 tələbəsi var. Dekan dosent Məhərrəm Vəliyevdir.

**Tarix fakültəsi**
1919-cu ildə təsis olunub. 3 saylı tədris binasında, VIII-IX mərtəbələrdə (dekanlıq - VIII mərtəbə (otaq 819) yerləşir. 9 kafedrası, 1221 tələbəsi var. Dekan əvəzi professor Rafael Süleymanovdur.

**Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsi**
1991-ci ildə təsis edilib. 1 saylı tədris binasında, IV -V mərtəbələrdə (dekanlıq IV mərtəbə (otaq 401) yerləşir. 5 kafedrası, 1500 tələbəsi var. Dekan professor Zeynal Həsənəliyevdir.

**Hüquq fakültəsi**
1927-ci ildə təsis edilib. 1 saylı tədris binasında, VI -IX mərtəbələrdə (dekanlıq VII mərtəbə (otaq 701-702) yerləşir. 10 kafedrası, 1667 tələbəsi var. Dekan professor Əmir Əliyevdir.

**Jurnalistika fakültəsi**
1969-cu ildə təsis olunub. 2 saylı tədris binasında, II-III mərtəbələrdə (dekanlıq - III mərtəbə) yerləşir. 4 kafedrası, 500 tələbəsi var. Dekan professor Yalçın Əlizadədir.

**Kitabxanaçılıq-informasiya fakültəsi**
1947- ildə təsis olunub. 2 saylı tədris binası, IV-V mərtəbələrdə (dekanlıq - IV mərtəbə (otaq 408) yerləşir. 4 kafedrası, 441 tələbəsi var. Dekan professor Xəlil İsmayılovdur.

**Şərqşünaslıq fakültəsi**
1922-ci ildə təsis olunub. 2 saylı tədris binasında, VI-VIII mərtəbələrdə (dekanlıq - VII mərtəbə (otaq 710) yerləşir. 4 kafedrası, 552 tələbəsi var. Dekan dosent Elxan Əzizovdur.

**Sosial elmlər və psixologiya fakültəsi**
1991-ci ildə təsis edilib. 2 saylı tədris binasında, VIII-IX mərtəbələrdə (dekanlıq - IX mərtəbə (otaq 901) yerləşir. 8 kafedrası, 1059 tələbəsi var. Dekan professor Hikmət Əlizadədir.

**İlahiyyat fakültəsi**
1992-ci ildə təsis edilib. Əhməd Cəmil küçəsi 41 a ("Gənc istedadlar" liseyinin binası) ünvanında (dekanlıq - II mərtəbə) yerləşir. 2 kafedrası, 168 tələbəsi var. Dekan akademik Vasim Məmmədəliyevdir.

**Ekologiya və torpaqşünaslıq fakültəsi**
2010-cu ildə təsis edilib. Əsas binada, II-III mərtəbələrdə (dekanlıq - III mərtəbə (otaq 361) yerləşir. 5 kafedrası, 570 tələbəsi var. Dekan dosent Nazim Şəmilovdur.

## Şöbələrimiz

**Tədris hissəsi**
Tədris hissəsinin rəisi: İbad İbadov
Telefon:(+994 12)539 06 86
Əsas bina, II mərtəbə, otaqlar 226, 251, 441

**Magistratura və Doktorantura şöbəsi**
Müdir: Afət Məmmədova
Telefon: (99412) 539 06 71
e-mail: m.afet@mail.ru
Əsas bina, I mərtəbə

**Həmkarlar İttifaqı Komitəsi**
Sədr: Fikrət Şiriyev
Telefon:(+994 12) 510 56 66
Əsas bina, III mərtəbə, (Heydər Əliyev muzeyinin yanı)

**Ümumi şöbə**
Rəhbər: Nurlana Sadıqova
Telefon:(+994 12)539 05 17
Əsas bina, II mərtəbə

**Tələbə-Gənclər Təşkilatı**
Sədr : Məmmədbağır Məmmədov
Telefon:(+994 12) 510 25 87
Əsas bina, I mərtəbə

**Tələbə Həmkarlar İttifaqı Komitəsi**
Sədr: Daşqın Qənbərov
Telefon:(+994 12) 539 05 43
Əsas bina, I mərtəbə

**Kadrlar Şöbəsi**
Rəhbər: Səadət Namazova
Telefon:(+994 12) 539 06 81
Əsas bina, I mərtəbə

**Mühasibatlıq**
Rəhbər: Firuzə Babayeva
Telefon:(+994 12) 439 04 15
Əsas bina, I mərtəbə

**Elmi kitabxana**
Direktor: Sara İbrahimova
Telefon:(+994 12) 439 06 21
Əsas bina, I-IV mərtəbə; 1 saylı bina, III mərtəbə; 2 saylı bina, VII mərtəbə

**İnformasiya texnologiyaları mərkəzi**
Rəhbər: Əzbər Sadayev
Telefon:(+994 12) 5391146
Əsas bina, 1-ci mərtəbə, otaq 123

**Bədən tərbiyəsi və idman kafedrası**
Kafedraya Akif Atakişiyev rəhbərlik edir.
Telefon:(+994 12) 438 73 94

**Özfəaliyyət dərnəyi**
Rəhbər: Bayram Məmmədov
Əsas bina, III mərtəbə, Heydər Əliyev Muzeyinin yanı
Telefon:(+994 12) 539 05 26

**"Bakı Universiteti" nəşriyyatı**
Nəşriyyata İslam Şirinov rəhbərlik edir.
Telefon:(+994 12) 438 83 72

**Poliklinika**
Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən 30 saylı şəhər poliklinikası universitet müəllimlərinə və onların ailə üzvlərinə, həmçinin tələbələrə xidmət edir. Bu sağlamlıq ocağında 29 həkim və 23 tibb bacısı çalışır. Universitetin "Gənc istedadlar" liseyində və Üzgüçülük Kompleksində isə tibb məntəqələri fəaliyyət göstərir.
Telefon:(+994 12) 537 05 43

**"Gənc istedadlar" liseyi**
Direktor: Qasım Hüseynov
17 aprel 2006-cı il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Xüsusi istedada malik olan şagirdlərin (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" qəbul edilib. Bu proqrama uyğun olaraq, Respublika Təhsil Nazirliyinin 08.06.2007-ci il tarixli 708 saylı əmri ilə BDU-nun nəzdində "Gənc istedadlar" liseyi fəaliyyətə başlayıb. Fəaliyyət göstərdiyi dövrdə lisey bir çox uğurlara imza atıb, məzunları ən yüksək bal toplayaraq ali təhsil ocaqlarına daxil olublar.
Telefon:(+994 12) 510 74 54

**BDU-nun yeməkxanalar şəbəkəsinin quruluşu**
Abdulrəhim Hacıyev rəhbərlik edir.
Dörd tədris korpusundan ibarət olan Bakı Dövlət Universitetinin hər korpusunda müəllim və tələbələr üçün nəzərdə tutulmuş iki yeməkxana zalı fəaliyyət göstərir. Bundan əlavə, tələbələrin ad günlərini qeyd etmələri üçün musiqi mərkəzi ilə təchiz edilmiş xüsusi banket zalı və BDU-ya gələn çoxsaylı xarici, o cümlədən yerli qonaqları qarşılamaq üçün VİP zalı var. BDU-nun həyətində çay içmək və ya nahar etmək istəyənlər üçün isə yay kafesi fəaliyyət göstərir.

**İstirahət**
BDU-nun həyətyanı sahəsində yaradılan şərait tələbələrin asudə vaxtlarını xoş keçirməsinə və mənalı istirahətinə imkan verir.
Altıağac təcrübə bazası tələbələrin çöl-tədris təcrübələrini təşkil etmək, müxtəlif tədbirlərin, yay məktəblərinin, konfrans və seminarların keçirilməsi, həmçinin istirahət məqsədilə 1991-ci ildə yaradılmışdır.
2010-cu ildə Qubada yaradılmış tədris-təcrübə bazası isə biologiya fakültəsinin tələbələri üçün nəzərdə tutulub.

**Biz inanırıq ki, BDU-nun hər bir tələbəsi onlar üçün yaradılan şəraitdən razı qalacaqdır!**

**Hazırladı: Solmaz BABAŞOVA**

## Heydər Əlirza oğlu Əliyev - ümummilli lider (1923-2003) Tarix fakültəsinin 1957-ci il məzunu



Bakı Dövlət Universiteti böyük alimlər, ictimai xadimlər, yaradıcı ziyalılar yetişdirib. Lakin tam məsuliyyətlə demək olar ki, Bakı Dövlət Universitetinin ən böyük məzunu, öz xalqına, onun mədəniyyətinə və mənəviyyatına son dərəcədə bağlı olan, öz şəxsiyyəti ilə xalqımızın simvoluna çevrilən, Azərbaycan dövlətinin xilaskarı və qurucusu, dünya azərbaycanlılarının lideri Heydər Əlirza oğlu Əliyevdir. Bakı Dövlət Universitetinin Heydər Əliyev qədər həm bütün Azərbaycan xalqının, həm də Universitetimizin şöhrətini yüksəklərə qaldıran, millətinə xidmət göstərən ikinci məzunu yoxdur!

*Akademik A.M.Məhərrəmov, Bakı Dövlət Universitetinin rektoru*

# GÖRKƏMLİ MƏZUNLARIMIZ

Qəzetin bu sayında mexanika-riyaziyyat fakültəsinin görkəmli elm xadimləri və məzunlarını təqdim edirik:

V.A.Tartakovski - professor

A.S.Kovanko - professor

Məmmədbəy Rəşidbəy oğlu Əfəndiyev - professor (1887-1977)

Zahid İsmayıl oğlu Xəlilov - akademik (1911-1974)

Əşrəf İsgəndər oğlu Hüseynov - akademik (1907-1980)

İbrahim İbiş oğlu İbrahimov - akademik (1912-1994)

Yaroslav Borisoviç Lopatinski - akademik (1906-1981)

Azad Xəlil oğlu Mirzəcanzadə - akademik (1928-2006)

Fərəməz Qəzənfər oğlu Maqsudov - akademik (1930-2000)

Maqsud Əlisimran oğlu Cavadov - AMEA-nın müxbir üzvü (1902-1972)

Arif Əliheydər oğlu Babayev - AMEA-nın müxbir üzvü (1934-1998)

Yəhya Cəfər oğlu Məmmədov - AMEA-nın müxbir üzvü (1930-2000)

Yusif Əmən oğlu Əmənzadə - AMEA-nın müxbir üzvü (1914-1982)

Qoşqar Teymur oğlu Əhmədov - AMEA-nın müxbir üzvü (1917-1975)

Mais Həbib oğlu Cavadov - AMEA-nın müxbir üzvü (1929-1992)

Əmir Şəmil oğlu Həbibzadə - professor (1916-2009)

Misir Cümayıl oğlu Mərdanov - professor, təhsil naziri

Akif Cəfər oğlu Hacıyev - akademik, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru

Fikrət Əhmədəli oğlu Əliyev - akademik, BDU-nun Tətbiqi Riyaziyyat İnstitutunun direktoru

Fatma Hüseyn qızı Abdullazadə - professor, Prezident Administrasiyasının humanitar məsələlər üzrə şöbə müdiri

Bala Ağahüseyn oğlu İskəndərov - AMEA-nın müxbir üzvü, Riyaziyyat və Mexanika İntitutunun şöbə müdiri

Anar Nadir oğlu Əlizadə - AMEA-nın müxbir üzvü, Azərbaycan Texniki Universitetinin prorektoru

Hətəm Hidayət oğlu Quliyev - AMEA-nın müxbir üzvü, AMEA-nın Geologiya İnstitutunun şöbə müdiri

Surxay Cabbar oğlu Əkbərov - AMEA-nın müxbir üzvü, Türkiyənin Yıldız Texnik Universitetinin professoru

Rauf Vəli oğlu Hüseynov - AMEA-nın müxbir üzvü, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun şöbə müdiri

Telman Qulu oğlu Məlikov - professor, Gəncə Texnologiya Universitetinin rektoru

# BDU-da əsas hadisələr

**1919** - Universitet təsis edilib. Tarix-filologiya və tibb fakültələri açılıb.

**1920** - Fizika-riyaziyyat fakültəsi açılıb.

**1921** - Azərbaycan (türk) dilində tədris başlanıb.

**1921** - "Elmi xəbərlər" jurnalı çap olunmağa başlanıb.

**1922** - Adı dəyişdirilərək Azərbaycan Dövlət Universiteti edilib. Müstəqil şərqşünaslıq fakültəsi yaradılıb.

**1924** - Universitetə V.İ.Leninin adı verilib.

**1926** - Universitetə ilk azərbaycanlı rektor təyin edilib.

**1928** - Hüquq fakültəsi yaradılıb.

**1929** - 10 illik yubileyi qeyd edilib.

**1930** - Yeni Universitet şəhərciyinin tikilməsi haqqında qərar qəbul olunub.

**1930** - Müstəqil ali məktəblər bəhanəsi ilə universitet bağlanıb.

**1934** - ADU yenidən fəaliyyətə başlayıb. Kimya fakültəsi açılıb. Biologiya fakültəsi müstəqil fakültə olub.

**1937** - Onlarla tanınmış ziyalı repressiyaya məruz qalıb, 4 rektor və 100 əməkdaş güllələnib.

**1939** - Universitetə S.M.Kirovun adı verilib.

**1941** - ADPU, ADİU, ADBTİA, ADU universitetə birləşdirilib.

**1941** - Rektor və həmin ilin bütün məzunları cəbhəyə yollanıb.

**1943** - Geologiya və coğrafiya fakültələri yaradılıb.

**1945** - BDU-nun bazası əsasında AMEA təşkil edilib.

**1957** - Ümummilli lider H.Əliyev tarix fakültəsini bitirib.

**1958** - Müstəqil fizika fakültəsi yaradılıb. Müstəqil mexanika-riyaziyyat fakültəsi yaradılıb.

**1962** - Müstəqil kitabxanaçılıq-informasiya fakültəsi yaradılıb.

**1964** - Əsas tədris binası istifadəyə verilib.

**1969** - 50 illik yubileyi qeyd edilib. Müstəqil jurnalistika fakültəsi yaradılıb.

**1971** - Universitet Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilib.

**1972** - Tətbiqi riyaziyyat və kibernetika fakültəsi yaradılıb.

**1974** - Kitabxanaya "Elmi kitabxana" statusu verilib.

**1977** - Birinci tədris korpusu istifadəyə verilib.

**1987** - İkinci tədris korpusu istifadəyə verilib.

**1990** - Universitetə M.Ə.Rəsulzadənin adı verilib.

**1991** - Müstəqil geologiya fakültəsi yaradılıb.

- Müstəqil coğrafiya fakültəsi yaradılıb.

- Sosial elmlər və psixologiya fakültəsi yaradılıb.

- Tətbiqi riyaziyyat ETİ yaradılıb.

- Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi yaradılıb.

**1992** - İlahiyyat fakültəsi yaradılıb.

**1994** - Ümummilli lider H.Əliyev BDU-nun "Fəxri doktoru" seçilib.

**1994** - 75 illik yubileyi qeyd edilib.

**1999** - Lokal internet şəbəkəsi istifadəyə verilib.

**2000** - 80 illik yubileyi qeyd edilib.

**2000** - İlkin adı - Bakı Dövlət Universiteti bərpa edilib.

**2001** - İdman kompleksi istifadəyə verilib.

**2002** - Qaradəniz Hövzəsi Universitetlər Assosiasiyasının mərkəzi seçilib.

**2002** - Nəşriyyat istifadəyə verilib.

**2003** - Üzgüçülük kompleksi istifadəyə verilib.

**2005** - Yeni elmi-tədqiqat laboratoriyaları və Fizika İnstitutu istifadəyə verilib.

**2006** - "Gənc istedadlar" liseyə qəbul keçirilib.

**2006** - "Bakı Universiteti" yaşayış kompleksinin tikintisinə başlanıb.

**2008** - Yeni tədris korpusu istifadəyə verilib.

**2009** - 90 illik yubileyi qeyd edilib.

**2010** - Tədris Elektron Mərkəzi yaradılıb.

**2011** - Ekologiya və torpaqşünaslıq fakültəsi açılıb.

## Kimya fakültəsinin I kurs tələbələri və onların valideynləri ilə görüş

Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov bu il kimya fakültəsinə qəbul olmuş tələbələr və onların valideynləri ilə görüşüb. Rektor tələbələri, onların valideynlərini təbrik edib. Bildirib ki, universitet yetkin bir insanın təhsil aldığı müəssisədir və burada yalnız oxuyub, seçdiyin ixtisasın peşəkarı olmağa çalışmaq lazımdır. Valideynləri isə övladlarının universitetə uyğunlaşma müddətlərinə qədər nəzarətdə saxlamağa çağıran rektor bu günlərdə BDU-nun dünyanın 700 ən yaxşı universiteti siyahısına daxil olduğunu da tədbir iştirakçılarının nəzərinə çatdırıb. Akademik Abel Məhərrəmov nanotexnologiyaların inkişaf etdiyi dövrdə kimyaçıların zəhmətinin böyük olduğunu deyib, yenicə tələbə adını qazanmışlara mənalı, məntiqli tələbəlik həyatı keçirməyi arzulayıb.

Qeyd edək ki, bu il universitetin kimya fakültəsinin kimya, kimya müəllimliyi və kimya mühəndisliyi ixtisaslarına 143 tələbə qəbul olub. Onlardan 8 nəfəri 600 baldan yüksək, 14 nəfəri 550-600, 73 nəfəri isə 500-550 bal toplayanlardır.

**Məryəm Mehdiyeva**



# REKTORLARIMIZ

**V.İ.Razumovski**
(1857-1935)
Vasili İvanoviç Razumovski 1919-1920-ci illərdə BDU-ya rəhbərlik etmiş ilk rektordur.

* * *

**S.N.Davidenkov**
(1880-1961)
Sergey Nikolayeviç Davidenkov 1920-1923-cü illərdə rektor olmuşdur.

* * *

**A.D.Qulyayev**
(1870-1930)
Aleksandr Dmitriyeviç Qulyayev 1923-1926-cı illərdə rektor olmuşdur.

* * *

**T.A.Şahbazi**
(1892-1937)
Tağı Şahbazi Simurq 1926-1929-cu illərdə BDU-nun ilk azərbaycanlı rektoru olmuşdur.

* * *

**V.S.Yelpatyevski**
(1877-1937)
Vladimir Sergeyeviç Yelpatyevski 1929-cu ildə rektor olmuşdur.

* * *

**M.M.Məmmədov**
(1897-1937)
Maqsud Məmməd oğlu Məmmədov 1929-1930-cu illərdə rektor olmuşdur.

* * *

**M.Ə.Ələkbərli**
(1892-1937)
Məmmədkazım Ələkbər oğlu Ələkbərli 1934-1935-ci illərdə rektor olmuşdur.

* * *

**B.C.Həsənbəyov**
(1899-1937)
Balabəy Cabbar oğlu Həsənbəyov Ələkbərli 1935-1937-ci illərdə rektor olmuşdur.

* * *

**Ə.M.Əliyev**
(1897-1962)
Əziz Məmmədkərim oğlu Əliyev 1937-ci ildə rektor olmuşdur.

* * *

**C.A.Ələsgərov**
(1907-1969)
Cəbrayıl Ağaəli oğlu Ələsgərov 1937-1941-ci illərdə rektor olmuşdur.

* * *

**Ş.R.Əliyev**
(1912-1969)
Şamil Rəhim oğlu Əliyev 1941-1944-cü illərdə rektor olmuşdur.

* * *

**A.İ.Qarayev**
(1910-1968)
Abdulla İsmayıl oğlu Qarayev 1944-1950-ci illərdə rektor olmuşdur.

* * *

**C.Z.Hacıyev**
(1910-1961)
Cəfər Xəndan Zeynal oğlu Hacıyev 1950-1954-cü illərdə rektor olmuşdur.

* * *

**Y.H.Məmmədəliyev**
(1905-1961)
Yusif Heydər oğlu Məmmədəliyev 1954-1958-ci illərdə rektor olmuşdur.

* * *

**Ş.F.Mehdiyev**
(1911-1985)
Şəfayət Fərhad oğlu Mehdiyev 1958-1965-ci illərdə rektor olmuşdur.

* * *

**M.S.Əliyev**
(1907-1972)
Mehdi Sadıq oğlu Əliyev 1965-1970-ci illərdə rektor olmuşdur.

**F.M.Bağırzadə**
(1926-1988)
Faiq Məmməd oğlu Bağırzadə 1970-1987-ci illərdə rektor olmuşdur.

* * *

**Y.C.Məmmədov**
(1930-2000)
Yəhya Cəfər oğlu Məmmədov 1987-1989-cu illərdə rektor olmuşdur.

* * *

**C.B.Quliyev**
(1927-2010)
Cəmil Bahadur oğlu Quliyev 1989-1990-cı illərdə rektor olmuşdur.

* * *

**M.G.Qasımov**
(1939-2008)
Mirabbas Göycə oğlu Qasımov 1990-1992-ci illərdə rektor olmuşdur.

* * *

**F.Y.Səməndərov**
(1939)
Firudin Yusif oğlu Səməndərov 1992-1993-cü illərdə rektor olmuşdur.

* * *

**M.N.Ələsgərov**
(1928)
Murtuz Nəcəf oğlu Ələsgərov 1993-1996-cı illərdə rektor olmuşdur.

* * *

**M.C.Mərdanov**
(1946)
Misir Cümayıl oğlu Mərdanov 1996-1998-ci illərdə rektor olmuşdur.

* * *

**A.M.Məhərrəmov**
**(1950)**
Abel Məmmədəli oğlu Məhərrəmov 1999-cu ildən rektordur.

# Müseyib Ağababa oğlu Müseyibov

**Azərbaycanın təhsil ictimaiyyətinə ağır itki üz vermişdir. Bakı Dövlət Universitetinin Fiziki coğrafiya kafedrasının müdiri, əməkdar elm xadimi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, professor Müseyib Ağababa oğlu Müseyibov ömrünün 84-cü ilində vəfat etmişdir.**

Müseyib Ağababa oğlu Müseyibov 1927-ci ildə Tovuz rayonunda anadan olmuşdur. 1944-cü ildə A.S.Puşkin adına Tovuz şəhər orta məktəbini, 1949-cu ildə Bakı Dövlət Universitetinin Geologiya-coğrafiya fakültəsini bitirmişdir.

1954-cü ildə namizədlik ("Ceyrançölün geomorfologiyası"), 1963-cü ildə doktorluq ("Orta Kür çökəkliyinin geomorfologiyası və yeni tektonik hərəkətləri") dissertasiyası müdafiə edib. 1960-cı ildən BDU-nun Fiziki coğrafiya kafedrasının müdiri, 2000-ci ildən Coğrafiya fakültəsinin dekanı vəzifələrində işləmişdir.

1967-ci ildən 1991-ci ilə qədər SSRİ Ali Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının Coğrafiya bölməsinin, Respublika Ali Attestasiya Komissiyasının üzvü olmuşdur. 1971-ci ildən Azərbaycan Ali Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının, 1992-ci ildən Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının Coğrafiya bölməsinin sədri, 1994-cü ildən Azərbaycan Respublikası Prezidenti yanında TQDK-nın Coğrafiya seminarının rəhbəri, 1991-ci ildən Tovuz rayonunun erməni daşnaklarından müdafiəsinə yardım məqsədilə yaradılmış "Tovuz xeyriyyə cəmiyyəti"nin əsas yaradıcılarından biri və ağsaqqallar şurasının sədri olmuşdur.



Professor M.A.Müseyibov Azərbaycan Respublikasının ali və ümumtəhsil məktəbləri üçün tədris planlarının, dərslik və dərs vəsaitlərinin, tədris və elmi xəritələrin tərtibində müəllif, yaxud redaktor kimi əvəzsiz xidmət göstərmişdir. Onun təklifi ilə Azərbaycan Respublikası orta məktəblərinin X-XI siniflərində "Yerşünaslıq" və "Türk Dünyasının coğrafiyası" fənlərinin tədrisinə başlanıb və onların proqram və dərslikləri yaradılıb. Ali məktəblərin coğrafiya fakültələri üçün M.A.Müseyibovun yazdığı "Azərbaycanın fiziki coğrafiyası" dərsliyi ("Maarif" nəşriyyatı, 1998) öz orijinallığı ilə nəinki əvvəlki dərsliklərdən fərqlənir, həm də bu dərslikdə coğrafiyanın bir sıra problem məsələləri, o cümlədən Azərbaycan relyefinin əmələ gəlməsi, neotektonik hərəkətlərin səbəbinin yeni qlobal tektonika nəzəriyyəsi ilə əsaslandırılması, Azərbaycan torpaqlarının, xüsusilə iqliminin təsnifatına dair elmi ədəbiyyatda hökm sürən yanlış fikir və ideyalara aydınlıq gətirməsi elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

M.A.Müseyibovun coğrafiya elminə gətirdiyi mühüm yeniliklərdən biri Azərbaycan ərazisi landşaftlarının evolyusiyasına dair son 10 milyon ildə baş vermiş transformasiyaları araşdırmaq və onun səbəblərini izah etməklə yanaşı, paleolandşaft xəritələri ilə müşayiət olan monoqrafiyanı (2003) yaratmaq olmuşdur.

Hazırda Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsində tədris edilən "Ümumi geomorfologiya", "Qitələrin fiziki coğrafiyası", "Azərbaycanın fiziki coğrafiyası", orta məktəblərdə tədris edilən "Yerşünaslıq" (X sinif), "Türk Dünyasının coğrafiyası" (XI sinif) dərslikləri M.A.Müseyibovun əsas müəllifliyi ilə yaradılmışdır. M.A.Müseyibov Azərbaycanın, Cənubi Qafqazın landşaftı, SSRİ-nin geomorfoloji, Azərbaycanın neotektonik hərəkətləri xəritələrinin və orta məktəblərin VI və VII sinifləri üçün atlasların əsas müəlliflərindən, "Qafqazın regional geomorfologiyası" (Moskva, 1979); "Orta Kür çökəkliyinin geomorfologiyası" (Azərnəşr, 1975); "Təbiətin təzadları" (Azərnəşr, 1991); "Landşaftı Azərbaydjana" (BDU, 2003); "Azərbaycanın geomorfologiyası" (BDU, 1975) və bir sıra başqa dərslik, dərs vəsaiti və monoqrafiyaların müəllifi və həmmüəlliflərindəndir.

M.A.Müseyibov 1960-cı ildən SSRİ Coğrafiya Cəmiyyətinin Lvov, Tbilisi, Moskva, Kazan, Sankt-Peterburq, Bişkek və b. qurultaylarının, Beynəlxalq Coğrafiya İttifaqının Kanada, Moskva konfranslarının iştirakçısı, paleoiqlimşünaslığa dair Sovet-Amerika simpoziumunun təşkilatçılarından olmuş və maraqlı məruzələrlə çıxış etmişdir.

Azərbaycan Geologiya İdarəsinin sifarişi ilə professor M.A.Müseyibovun rəhbərliyi altında 1967-ci ildən 1985-ci ilə qədər böyük həcmli təsərrüfat müqaviləsi işləri yerinə yetirilmiş, meliorasiya məqsədləri üçün Azərbaycanın düzənlik ərazilərinin irimiqyaslı geomorfoloci və landşaft xəritələri tərtib edilmişdir.

Professor M.A.Müseyibovun rəhbərliyi altında 20 nəfərdən çox elmlər namizədi və doktoru hazırlanmışdır. Bundan başqa o, 10-dan çox magistr dissertasiyasının rəhbəri olmuşdur.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası yaradılan zaman professor M.A.Müseyibov Yer elmləri üzrə Ekspert Şurasının üzvü (1991-2003) olmuşdur.

M.A.Müseyibovun xidmətləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən yüksək qiymətləndirilmiş və o, "Əməkdar elm xadimi" fəxri adına və Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Zəngin həyat və elmi-pedaqoci təcrübəyə, geniş bilik və yüksək mədəniyyətə malik olan professor M.A.Müseyibovun əziz xatirəsi onu tanıyanların və universitet kollektivinin qəlbində əbədi yaşayacaqdır.

***Allah rəhmət eləsin!***

## UNİVERSİTETİM!

Ocağında alışdığım,
Qucağında isindiyim,
Qoynunda boya başa çatdığım,
Ağlım, düşüncəm, hikmətim
-UNİVERSİTETİM!

Xalqımın nur qaynağı,
Millətimin işıq məbədi,
Elmimin, təhsilimin ümid yeri,
Halal haqqım, danılmaz həqiqətim
-UNİVERSİTETİM!

Azadlığımın yorulmaz carçısı,
Müstəqilliyimin ilk dayağı,
Mübarizəmin ön səngəri,
Mənəviyyatımın ləkəsiz aynası,
Böyüklüyüm, cəsarətim
-UNİVERSİTETİM!

Kövrək hisslərimin danışan dili,
Zərif duyğularımın tərcümanı,
Sevən-sevilən çağlarımın şahidi,
Sevgim, məhəbbətim
-UNİVERSİTETİM!

Yuxusuz gecəm,
Narahat gündüzüm,
Gərgin imtahanım,
Dəli-dolu gəncliyim,
Qaynar tələbəliyim,
Heyrətim, qeyrətim
-UNİVERSİTETİM!

Ali məktəbim,
Böyük mətləbim,
Elmim, ədəbim,
Çağlayan təbim,
Ulu sevgim, təmiz niyyətim
-UNİVERSİTETİM!

Dünyaya açılan pəncərəm,
Həyata uzanan qollarım,
Varlığa vurulan gözlərim,
Ən dadlı neməti, ən şirin qisməti
-UNİVERSİTETİM!

# Gözəllik kitabları
















Xanımlar gözəlliklə bağlı suallara cavab tapmaq üçün adətən bəzi jurnallara müraciət edirlər. Lakin onlar az sayda olan bu jurnallardan gözəl və cazibədar görünmək üçün geyim, səs və üz maskaları, saça, dəriyə qulluq, kökəlmədən qurtulma və s. kimi məsələlər barədə yetərli, tam əhatəli məlumatlar əldə edə bilmirlər.

”Bakı Universiteti” qəzetinin müxbiri Aynur Qurbanqızının ”Gözəllik sirləri” silsiləsindən hazırladığı kitablar sağlam və gözəl görünmək istəyən xanımlar üçün bu sahədə ilk nəşrlər olduğundan maraqla qarşılandı. Onun bir-birinin ardınca tərtib etdiyi ”Arıqlamağın sirri”, ” Saç tökülməsinin səbəbləri və müalicə yolları”, ” Gözəl saçlara necə sahib olmalı?”, ”Üz üçün maskalar”, ”Üz dərisinə mükəmməl qulluq”, ”Cazibədar görünmək üçün necə geyinməli?” kitabları yaşından asılı olmayaraq bütün xanımlara ünvanlanıb. Kitablar, o cümlədən gözəllik sirləri ilə bağlı daha geniş məlumat almaq üçün **azadqadin.az saytına** baxa bilərsiniz.

**Azadqadin.az - Xanımlar üçün sayt**

# ŞEYTANDAN MƏKTUB

***Cənab Molla Nəsrəddin! Təvəqqə edirəm bəndənin bu iltimasını məcmuənizdə yazıb elan edəsiniz!***

Xeyli müddətdir ki bəndə müsəlman vilayətlərindən çıxıb Yevropaya, yəni xaçpərəst vilayətlərində sakin oluram və Yevropa qəzetlərində hər gün oxuyuram ki müsəlmanlar bir pis iş görəndə, bir-birini öldürəndə, çaxır içəndə, qumar oynayanda, xalqın malın yeyəndə, yetimə zülm eləyəndə, o işi mənə nisbət verirlər (guya ki mən demişəm onlara adam öldürünüz! Yaxşı iş tutmuyunuz, məktəb açmayınız! İttifaq etməyiniz!) Və mənə lənət edirlər. Mən çoxdan istəyirdim ki bu xəbərlərə rədiyyə yazam, amma çünki türk dilində bir qəzet yox idi, məəttəl qalmışdım. Bu günlərdə bir firəng qəzeti oxuyurdum, gördüm ki yazılıb Rusiyada Tiflis şəhərində bir ”Molla Nəsrəddin” adlı türk dilində jurnal çıxıb və Rusiya, Osmanlı, Əfqan müsəlmanları və ələlxüsus İran müsəlmanları o jurnalı çox alırlar, mən də o fikirdən ki hamı müsəlmanlar oxusunlar, bu məktubumun ”Molla Nəsrəddin”də yazılmağın iltimas elədim. Əvvəla bəndə on il olar ki müsəlman vilayətlərindən çıxmışam, çünki mən sizdə müsəlmanların öz aralarında çox şeytan var, o işlər ki mən gərək onları dəlalət edəm o işə, onu özləri edirlər və bir də Yevropaya gəlməyimin səbəbi odur ki bəlkə yevropalıları yoldan çıxardım. Amma bu bədbəxtlər heç mənim sözümə qulaq asmayıllar. Məsələn: Mən deyirəm övladlarınızı qoyunuz ki küçələrdə ”molla haray”, ”aşıq-aşıq”, ”qapaz-qapaz” oynasınlar, onlar mənim acığıma qoyullar məktəbə, sənətə. Mən deyirəm bir-birinizi öldürünüz! Onlar bir-birilə dəxi də mehriban olullar. Mən deyirəm ittifaq, ittihad nəyə lazımdır. Hər kəsən öz başın saxladı yaxşıdır! Onlar dəxi də ittifaqa, ittihada, birliyə, bir-birinə kömək etməyə çalışıllar. Mən deyirəm qəzet oxumaq haramdır, onlar acığıma dəxi də çox oxuyullar, qərəz ki lap təngə gəlmişəm. Bu məktubu yazmaqdan mətləbim odur ki hər cürə pis işlər ki, (şərə, Qurana müvafiq deyil) müsəlmanlar tutullar, qiyamət günündə Allah divanında cavabdehəndə özləridir, hərgah desələr pərvərdigara, bizi şeytan allatdı, onda bəndə ərz edəcəyəm ki ”ey adil Allah, vallah yalan deyillər, heç bunların bu pis işlərindən xəbərim yoxdur, vallah xəbərim yoxdur, billah xəbərim yoxdur. Vəssalam”.

***Şeytan***
**“Molla Nəsrəddin”, 1906**






# Məşhur yazıçının vəsiyyəti yenidən pozulur



Görkəmli ingilis yazıçısı, məşhur ”Oliver Tvistin macəraları” əsərinin müəllifi Çarlz Dikkens (1812-1870) ölümündən sonra ona heykəl qoyulmamasını vəsiyyət etmişdi.

Amma yazıçının doğma şəhəri olan Portsmutda bu vəsiyyəti pozmağa hazırlaşırlar. Şəhər hakimiyyəti qərara alıb ki, anadan olmasının 200 illiyi ilə bağlı Dikkensə mərkəzi meydanda heykəl qoyulsun. Heykəlin müəllifi Martin Cenninqdir. Heykəltəraş prototip olaraq yazıçının öz qızlarına kitab oxuduğu fotodan istifadə edib.

Qeyd edək ki, məşhur yazıçının vəsiyyəti indiyəcən yalnız bir dəfə pozulub: Dikkensin bürünc heykəli 1891-ci ildə ABŞ-da - Filadelfiyada qoyulub.

# Satıcısı olmayan dükan

Norveçin cənubunda kiçik fermalar və o fermaların yanında balaca dükanlar çoxdur. Milli.az xəbər portalı bildirir ki, həmin dükanlarda fermalarda istehsal edilən və yetişdirilən məhsullar satılır. Dükanda satıcı yoxdur. Sadəcə, alınan məhsulların qiymətini hesablamaq üçün bir küncdə kalkulyator və pulu qoymaq üçün kiçik qab var. Pulun qalığını da elə həmin qabdan götürmək olar.



# Dünyadakı SAVADSIZLARIN sayı açıqlandı



**BMT-nin UNESCO təşkilatı dünyada oxumağı-yazmağı bilməyən insanların sayını bəyan edib.**

Milli.Az xəbər portalı bildirir ki, hazırda dünyada 793 milyon insan savadsızdır. Onların əksəriyyəti qadınlardır.

Benin, Burkina Faso, Efiopiya, Qambiya, Gana, Haiti, Mali, Niger, Senegal, Syerra Leone və Çadda isə yetkinlik yaşına çatmış şəxslərin yarıdan çoxu bisavaddır.

UNESCO-nun hesabatında bildirir ki, dünyada məktəb yaşına çatmış 67 milyon uşaq məktəbə, 72 milyon yeniyetmə isə liseylərə gedə bilmirlər.

UNESCO-nun baş direktoru İrina Bokova bu problemləri aradan qaldırmaq üçün dünya dövlətlərini daha ciddi səylər göstərməyə çağırıb.

# Gündəlik protein tələbatını ödəməyin yolları

**Xəstəliyə Nəzarət və Qarşısının Alınması Mərkəzinin 2007-2008-ci ildə apardığı araşdırmanın nəticəsinə görə, normal insan orqanizmi tərəfindən tələb olunandan iki dəfə artıq protein qəbul edir.**



Zədələnmiş hüceyrələri bərpa etmək və yeni hüceyrələr yaratmaq üçün orqanizm proteinə ehtiyac duyur. Nyu-York Universitetinin qidalanma üzrə professoru və ”Nə yeməli” kitabının müəllifi Marion Nestle bildirir ki, kişilərin orqanizmi gündə 65 qram, qadınların orqanizmi isə 55 qram protein tələb edir.

Milli səhiyyə institutlarının bildirdiyinə görə, insanların çoxu öz gündəlik protein tələbatını proteinlə zəngin 2-3 porsiya qida qəbul etməklə ödəyə bilərlər. Protein porsiyasının nümunələri belədir: bir yumurta, 2 xörək qaşığı fındıq yağı, 2-3 unsiya (1 unsiya 28,3 qramdır) qırmızı ət, toyuq və ya balıq əti, yarım fincan lobya şorbası.

Dənli, paxlalı bitkilərdə və bəzi tərəvəzlərdə də protein var. Yəni ət yeməsəniz də, protein tələbatınızı ödəməyiniz çətin deyil. Məsələn, vegetarianlar və veqanlar qarğıdalı, lobya, ya da düyü yeməklə protein tələbatlarını lazımınca ödəyirlər.

Çoxlu miqdarda qırmızı ət yemək xərçəng və ürək xəstəlikləri riski ilə assosiasiya olunur. Qidalanma üzrə mütəxəssislərin əksəriyyəti, o cümlədən Marion Nestle ət yeməyi, xüsusilə yağlı ət yeməyi azaltmağı tövsiyə edir. Ətraf Mühit İşçi Qrupu bu yaxınlarda vəsait nəşr edib: ”Ət yeyənlər üçün bələdçi”. Burada göstərilir ki, həftənin bir günü hamburgerdən imtina etmək 320 mil (1 mil 1,6 km-dir) avtomobil sürməmək qədər xeyir verir.

Başqa tövsiyə isə proteinin mümkün qədər daha sağlam mənbələrdən əldə edilməsi ilə bağlıdır. Buraya paxlalı bitkilər, yağı az olan qatıq və qoz kimi qidalar aiddir. Bunların hamısında yüksək miqdarda protein var, üstəlik, bu qidaların ətraf mühitə zərəri də azdır.

Mütəxəssislər ət və pendirin mümkün qədər ən yüksək keyfiyyətlisinin yeyilməsini də tövsiyə edirlər. Pula qənaət etməyin bir yolu az, ancaq daha keyfiyyətli yeməkdir.

Təqdim etdi:
**Tamilla MÜSLÜMOVA**

Özünü fəth etməyi bacar!
# Bakı Universiteti
№ 10 (1418) 15 sentyabr 2011-ci il

SON SƏHİFƏ

## Tələbələrin nəzərinə!

***Xüsusi istedada, jurnalistlik qabiliyyətinə, yaradıcılıq bacarığına maliksinizsə və tanınmaq istəyirsinizsə "Bakı Universiteti" qəzetinə müraciət edin.***

# BDU kitabxanası - yeni nəşrlər



**"Onurğalı heyvanların ekologiyası"**

Biologiya elmləri doktoru, professor Qara Mustafayev, biologiya elmləri doktoru, professor Nərminə Sadıqova, biologiya elmləri namizədi Anar Məmmədov və fakültənin müəllimi Fazilə Qarabəylinin həmmüəllifliyi ilə çap olunan "Onurğalı heyvanların ekologiyası" kitabı yeni nəşrlər sırasındadır. Bu dərs vəsaiti təhsilin biologiya istiqaməti üzrə bakalavr pilləsi üçün nəzərdə tutulub. İlk dəfə 2001-ci ildə nəşr edilmiş bu dərslik köhnəldiyindən onun son variantı BDU-nun planına və respublikamızda keçirilən tədris islahatlarının tələblərinə uyğun yenidən işlənib, nəzəri və metodik baxımdan daha da zənginləşdirilib. Dərsliyin strukturu orijinaldır. Burada onurğalı heyvanların mənşəyinin və coğrafi yayılmasının ekologiyası, onların etologiyası, həyat tərzi, ekoloji qrupları, bu heyvanlara əhalinin təsiri, səmərəli istifadəsi və qorunması verilib. Dərslikdə ilk dəfədir ki, taksonomiya ekoloji təsnifata xidmət edir. Bu prinsip tələbələrin, müəllimlərin, ovçuların, balıqçıların və ekologiya ilə maraqlanan oxucuların heyvanlar aləminə müasir qiymət verməsini asanlaşdırır.

Son 10 ildə Azərbaycan Respublikasında onurğalı heyvanların öyrənilməsinə və qorunmasına dair yeni məlumatlar da bu dərsliyin məqsədinə pozitiv təsir edib.

Onurğalılar faunasının müasir müxtəlifliyini bərpa etmək və qoruyub saxlamaq dövlət və xalq işidir. Bu dərsliyin vəzifəsi də həmin məqsədə yardımçı olmaqdır.

**"Nəzəri mexanikadan mühazirələr"**



Fizika-riyaziyyat elmləri doktoru, professor Məhəmməd Axundov və İnformasiya Texnologiyaları Mərkəzinin (İTM) rəhbəri, fizika-riyaziyyat elmləri namizədi Əzbər Sadayevin həmmüəllifliyi ilə "Nəzəri mexanikadan mühazirələr" adlı dərs vəsaiti işıq üzü görüb. Təqdim olunan dərs vəsaiti mexanika-riyaziyyat fakültəsində uzun illər tədris olunan mühazirələr əsasında qurulub.

Dərs vəsaiti klassik nəzəri mexanikanın əsas mövzularını əhatə etməklə yığcam şəkildə tərtib olunub və əsasən mexnika-riyaziyyat fakültəsinin mexanika və riyaziyyat ixtisaslı tələbələri üçün nəzərədə tutulub. Həmçinin bu dərs vəsaiti klassik mexanikanın əsaslarını öyrənən texniki ali məktəblərin müvafiq ixtisaslı tələbələri və müəllimləri üçün də faydalı ola bilər.

**"Azərbaycan qoruqlarının landşaftı"**



Coğrafiya elmləri namizədi Tahir İbrahimovun müəllifi olduğu "Azərbaycan qoruqlarının landşaftı" adlı kitab da yeni nəşrlər sırasındadır. İki hissədən ibarət olan "Azərbaycan qoruqlarının landşaftı" kitabı müəllifin müxtəlif illərdə (beynəlxalq, ümumittifaq və respublika elmi konfranslarının materiallarında) çap etdirdiyi elmi məqalə və tezislərin toplusudur. Əsasən Azərbaycan qoruqlarının ekoloji problemlərinə həsr olunmuş həmin məqalələr ayrı-ayrı qoruq və yasaqlıqların özünəməxsus və zəruri olan tədbirlərdən bəhs etdiyi və onların bəzilərinin kiril əlifbası ilə yazıldığı nəzərə alınaraq yenidən tərtib olunub. Bu kitab coğrafiyaçılar, ekoloqlar, ali məktəb tələbələri və magistrantlar üçün nəzərdə tutulub.

***Aynur Qurbanqızı***

**Təqdim olunmuş məntiqi sualın düzgün cavabını izahı ilə BU_press@bsu.az ünvanına göndərə bilərsiniz. Cavab qəzetin növbəti sayında dərc ediləcək.**

## MƏNTİQİNİ YOXLA



Təqdim olunmuş məntiqi sualın düzgün cavabını izahı ilə BU_press@bsu.az ünvanına göndərə bilərsiniz. Cavab qəzetin növbəti sayında dərc ediləcək.

Qəzetin ötən sayında dərc edilən məntiqi sualı Şərqşünaslıq fakültəsinin II kurs tələbəsi Əmirov Məcid düzgün cavablandırıb: "Onun barmağındakı üzüyə "bu da keçər" sözləri yazılmışdı.

Beş dost yol ilə gedirlər, güclü yağış yağır. Dörd dost islanır, ancaq biri yox. Nəyə görə bir dost islanmır?

## ETİBARSIZDIR

Tarix fakültəsinin 5-ci kurs tələbəsi Abbasova Röya Qəhrəman qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Coğrafiya fakültəsinin 3-cü kurs tələbəsi Əhmədzadə İradə Səid qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Hüquq fakültəsinin 2-ci kurs tələbəsi Məmmədov Elvin Ehtiram oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Hüquq fakültəsinin 2-ci kurs tələbəsi Hüseynov Orxan Əbülfəz oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Biologiya fakültəsinin 4-cü kurs tələbəsi Hüseynzadə Ləman Elbrus qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Hüquq fakültəsinin 4-cü kurs tələbəsi Əlizadə Fariz Ariz oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## BAŞSAĞLIĞI

**Bakı Dövlət Universitetinin professor-müəllim heyəti Ekologiya və torpaqşünaslıq fakültəsinin dekanı Nazim Şəmilova, həyat yoldaşı Camilə Əliyevanın vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.**

# Bütün zamanların arzusu

**Bakı Dövlət Universiteti!**
**Əsrarəngiz olduğu qədər möhtəşəm, möhtəşəm olduğu qədər mükəmməl və müqəddəs təhsil ocağı! Ürəkləri isidən, qürur və iftixar hissi ilə dolduran, qəlbləri sevindirən əzəmət qərargahı! Bəlkə də, çox az adam tapılar ki, həyatının müxtəlif anlarında bu müqəddəs ocağın cazibəsini duymasın, onun tələbəsi olmağı arzulamasın.**

Universitet elə bir həyat məktəbidir ki, insan bütün zamanlarda yolunun ondan keçməsini arzulayır. Bir zaman tələbəsi olmaq arzusu ilə çırpınan ürəyimiz məqsədə çatıb, arzuya qovuşduqda qürur və iftixarla döyünür. Onun qədrini, dəyərini bilərək layiqli tələbəlik həyatı yaşayıb universitet müəllimlərinin hörmət və rəğbətini qazanır, sevimlisinə çevrilirik. Sevildikcə məsuliyyətimiz daha da artır, ona daha möhkəm, qırılmaz tellərlə bağlanırıq. Elə bir bağlılıqla ki, bu hissin hər keçən gün daha da gücləndiyini dərk edirik. O tələbə xoşbəxtdir ki, universitetə qədəm qoyduğu ilk andan məzun olduğu günədək ona böyük sevgi ilə bağlı olur, adına layiq olmağa çalışır və nəhayət, məhz ağlı, zəhməti, əzmi ilə buna nail olur. Bu müqəddəs məkanı ürəyimizdə böyük məhəbbətlə tərk edib mübarizə dolu həyata başlayır, onun adını ləyaqətlə qorumağa nail oluruq. Özümüzlə həyatımızın növbəti mərhələsinə yeni uğurlarımızı təmin edəcək universitet dəyərlərini aparırıq. Çalışırıq ki, bu müqəddəs məkanın adı hər zaman zirvələrdə qərar tutsun.

Tələbəlik həyatımızın ilk günlərindən müəllimlərin söylədiklərini yaddaşımıza həkk edir və tez-tez xatırlayırıq. Xatırlayırıq ki, unutmayaq, ona əməl edə bilək.

Bakı Dövlət Universiteti xalqımıza zaman-zaman dühalar bəxş etmişdir. Onlardan biri də müəllimlərim: professor Təhsin Mütəllimov, professor Cəlal Abdullayev, professor Vaqif Sultanlının adını hörmətlə andığı böyük alim, gözəl insan Mir Cəlal müəllim olub. Müəllimlər müəllimi, akademik Mir Cəlal Paşayev bizim müəllimlərimiz olan tələbələrinə: "Balalar, universitetin qədrini bilin. Universitet abırlı yerdir," - deyərək onlara universiteti sevdirmiş, elm aləminin sirləri ilə bərabər, yüksək mənəvi dəyərlər aşılamışdı. Mir Cəlal müəllimin varisləri - layiqli davamçıları olan müəllimlərimiz də universitetin müqəddəsliyini dərk etmək üçün ondan aldıqları ziya ilə bizim qəlbimizi nurlandırdılar.

İllər ötdükcə onu daha böyük məhəbbətlə sevirik. İş həyatına başladığımız ilk gündən ona olan bağlılığımızı daha çox hiss edirik. Bəzən işləyəcəyimiz müəssisənin harada yerləşdiyinə xüsusi olaraq diqqət yetiririk ki, məkan baxımından doğma universitetə yaxın olsun. Yaxın olsun ki, arxaya dönüb baxanda universitetin doğmalığını duyaq. Bu zaman düşünürük ki, hər an ona qovuşa bilər, gəlib görə bilərik müəllimlərimizi, qoyub getdiklərimizi... Orada tələbəlik illərimizin xatirələri, ömrümüzün zəhmətlə, elmə həvəslə keçən anları, tələbə yoldaşlarımızın, dostlarımızın zarafatları, şən qəhqəhələri, əziz müəllimlərimizin səsi, nəfəsi vardır. Bir qədər sonra anlayırıq ki, yox, onları tam tərk etməmişik, ürəyimizdə, yaddaşımızda, xəyalımızda özümüzlə getdiyimiz yerə aparmışıq...

Müəllimlər kamilliyə doğru gedən yolumuzun ən mükəmməl bələdçiləri olmuşlar. Hər gün onlara minnətdar olduğumuzu dərk edir, bağlılığımızı hiss edir, uğurlarımızda onların zəhmətinin izini görür, duyuruq. Məhz bu an onların qarşısında məsuliyyətimizin böyüklüyünü bir daha dərk edirik. Anlayırıq ki, bundan sonra elə yaşamalı, elə işləməliyik ki, doğma universitetin, müəllimlərimizin adına layiq mütəxəssis olaq.

Mənim universitetim! Bu sözü qürurla, sevinclə, sevgiylə söyləyə bildiyim üçün xoşbəxtəm! Ona görə xoşbəxtəm ki, tələbəlik illərimin bir anını belə boş, mənasız, səmərəsiz keçirməmişəm. Müəllimlərimdən elmin sirlərini öyrənib, həyat fəlsəfəmi onların nəzəriyyələri ilə mükəmməlləşdirib, biliklə silahlanıb, mübarizə meydanında uğurlar qazanmağa nail olmuşam.

*Bəli, universitet mənim həyat uğurumdur. Arzularımı reallaşdıran, həyatda inamlı addımlarla irəliləməyimi təmin edən uğurumdur. Arzu edirəm ki, bütün tələbələr, o cümlədən bu il Bakı Dövlət Universitetinə daxil olan dostlar hər zaman bu ideyanın daşıyıcıları olsunlar!*

**Dadaşova İlahə,**
***filologiya fakültəsinin məzunu***

## BDU-nun himni

**BAKI DÖVLƏT UNİVERSİTETİ!**

Yüksəlirik qucağında  
El(i)m bilik məbədisən  
BAKI DÖVLƏT UNİVERSİTETİ!  
Nur tapırıq ocağında  
Şərgin Gərbin qovşağında  
BAKI DÖVLƏT UNİVERSİTETİ!

Hikmətim, pak niyyətim, məhəbbətim, cəsarətim,  
Dəyanətim, şan-şöhrətim, milli sərvət, həqiqətim  
BAKI DÖVLƏT UNİVERSİTETİ!

Tarixdən yadigar oldun,  
Sən dahilər yetişdirdin  
BAKI DÖVLƏT UNİVERSİTETİ!  
Xalqımızdan vügar oldun  
Həmişə bayraqdar oldun  
BAKI DÖVLƏT UNİVERSİTETİ!

Millətin nur çeşməsi  
Qoy tanısın dünya səni  
BAKI DÖVLƏT UNİVERSİTETİ!  
Müqəddəslər müqəddəsi  
El(i)m, zəka xəzinəsi  
BAKI DÖVLƏT UNİVERSİTETİ!

Hikmətim, pak niyyətim, məhəbbətim, cəsarətim............  
BAKI DÖVLƏT UNİVERSİTETİ!

**Baş redaktor:**
Anzulə ƏMİROVA

**Redaksiya heyəti:**
Solmaz Babaşova,
Aynur Qurbanqızı,
Tamilla Müslümova,
Salam Muxtarov,
Kəramət Böyükçöl

**Redaksiyanın ünvanı:**
Bakı, akad. Zahid Xəlilov küç. 23,
BDU-nun əsas binası, III mərtəbə
**Tel.:** 439-03-64, 439-04-78
e-mail: BU_press@bsu.az

**Sifariş: 162**
**Tiraj: 3000**

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır